

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 233 (21.134)

6 dekabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Görkəmli maarifçi və pedaqoq Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi qeyd edilmişdir





Bu il görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 ili tamam olur.

Dekabrın 5-də Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin 160 illiyi münasibətilə yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yubiley tədbirində çıxış edərək demişdir: “Bu gün görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyini qeyd edirik. Məhəmməd Tağı Sidqi böyük maarifçi idi. Klassik maarifçilərlə yeni maarifçi nəsil arasında varislik körpüsü yaradan Sidqi milli maarifçiliyin inkişafı ilə bağlı ən yaxşı ənənələri yaratmışdır. Məhəmməd Tağı Sidqi maarifçiliyi onun ziyalılığından doğurdu. Bütün mənalı həyatını insanlara maarif işığı gətirməyə həsr edən bu ziyalı insan Azərbaycan ədəbiyyatında və pedaqoji fikir tarixində özünəməxsus yer tutur. Naxçıvanda elmi, mədəni və təhsil mühitinin formalaşmasında Sidqinin tarixi xidmətlərini yüksək qiymətləndirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***“Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur”.***

Qeyd olunmuşdur ki, Məhəmməd Tağı Sidqi qısa ömür yaşamışdır. Cəmi 49 il. Lakin bu ömrü o, xalqının təhsillənməsi naminə fədakar fəaliyyətlə zənginləşdirmiş, sağlığında müasirləri tərəfindən “böyük ustad”, “xalq müəllimi” adını almışdır. 160 il bundan əvvəl, 1854-cü ildə Ordubadda anadan olan Məhəmməd Tağı Sidqi Səfərov ilk təhsilini molla məktəbində almış, sonra isə mədrəsədə davam etdirmişdir. Burada klassik Şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənən Məhəmməd Tağı Sidqi ədəbi dərnəklərdə, şeir məclislərində iştirak etmiş, bədii yaradıcılıqla məşğul olmuşdur. Lakin xalq arasında təhsilə ciddi ehtiyac olduğunu görən Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubad şəhərində “Əxtər”, yəni “Ulduz” adlı yeni məktəb yaratmışdır. Gənc müəllimin pedaqoji fəaliyyəti Naxçıvan ziyalılarının diqqətini cəlb etmiş, 1894-cü ildə Naxçıvana dəvət olunan Sidqi burada “Tərbiyə” məktəbinin əsasını qoymuşdur.

Ali Məclisin Sədri demişdir: “Sidqinin “Tərbiyə” məktəbi o dövrdə mövcud olan mollaxana və mədrəsələrdən əsaslı şəkildə fərqlənirdi. Mollaxana və mədrəsələrdə dini elmlər, “Tərbiyə” məktəbində isə dünyəvi elmlər tədris olunurdu. Mollaxana və mədrəsələrdə dərslər ərəb dilində aparılırdısa, “Tərbiyə” məktəbində tədris doğma ana dilində aparılırdı. Burada “ana dili”, “rus dili”, “fars dili”, “tarix”, “coğrafiya”, “hesab” fənləri tədris edilir, əməli məşğələlər keçirilirdi. Mollaxanalardan fərqli olaraq, “Tərbiyə” məktəbində partalar qoyulmuş, sinif-dərs sistemi tətbiq edilmişdir. “Tərbiyə” məktəbində etika dərsləri tədris olunurdu ki, bu da Sidqi məktəbinin şöhrətini daha da artırırdı. Məhəmməd Tağı Sidqinin “Tərbiyə” məktəbinin şagirdləri üçün öz əli ilə yazdığı “Ədəb qaydaları” dövrümüzədək mühafizə edilib saxlanmışdır. “Tərbiyə” məktəbi Azərbaycan məktəbi tarixində ilk milli məktəblərdən biri idi. Bu məktəb böyük ədib Cəlil Məmmədquluzadənin də diqqətini cəlb etmişdir. “Naxçıvan şəhərində həmin məktəbi Sidqi təsis edən zaman belə qaydalı müsəlman mədrəsəsi nəinki İrəvanda, bəlkə, Qafqazın böyük müsəlman şəhərlərinin çoxunda yox idi”, – deyən Cəlil Məmmədquluzadə “Tərbiyə” məktəbini “yeniyetmə müəllim və ədiblər üçün elm və maarif evi adlandırmışdır. Bu məktəb qısa bir zamanda Naxçıvan ədəbi-mədəni fikrinin əsas mərkəzlərindən birinə çevrilmişdir.



Məhəmməd Tağı Sidqinin açdığı yeni üsullu məktəblər xalqımızın bütöv bir ziyalı nəslini yetirmişdir. Azərbaycan romantik dramaturgiyasının banisi Hüseyn Cavid, tarixi roman janrının banisi Məmməd Səid Ordubadi, realist rəssamlığın banisi Bəhruz Kəngərli və onlarla başqaları Məhəmməd Tağı Sidqinin təsis etdiyi “Ulduz” və “Tərbiyə” məktəblərinin yetirmələridirlər. Məhəmməd Tağı Sidqinin yetirmələri onun hikmətli kəlamlarına və pedaqoji söhbətlərinə qulaq asmaq, şeirlərini dinləyib müzakirə etmək, Sidqinin köməkliyi ilə Rusiya, Qafqaz və Şərq mətbuatını mütaliə etmək imkanı qazanmışdılar. Bunun nəticəsidir ki, mütəfəkkir şairimiz Hüseyn Cavid məktublarında Sidqiyə “böyük ustad və cəlallı atamız” deyə müraciət edirdi. “Elm bir çox kitabları oxuyub yazmaqdan ibarət deyil, oxuduqca anlamaqdan ibarətdir”, – deyən Məhəmməd Tağı Sidqi məktəbdə tədrisin səviyyəsinə, müəllimlərin dərsə hazırlığına, şagirdlərin bədii nitqinə, biliklərinin inkişaf etdirilməsinə xüsusi fikir verməklə Azərbaycan məktəbdarlığında yeni ənənələrin əsasını qoymuş, milli maarifçilik tariximizdə özünə böyük abidə ucaltmışdır”.

Ali Məclisin Sədri demişdir ki, Məhəmməd Tağı Sidqinin xüsusi xidmətlərindən biri də qızların təhsil alması ilə bağlı gördüyü fədakar işlərdir. Maarifpərvər ziyalı kimi qızların təhsil almasını çox vacib sayan Sidqi onların elmə və maarifə, mədəniyyətə yiyələnmələrinə xüsusi əhəmiyyət vermişdir. Nəzərə almaq lazımdır ki, Məhəmməd Tağı Sidqinin yaşadığı dövrdə qızların məktəbə cəlb olunması olduqca çətin məsələ idi, buna baxmayaraq, Sidqi 1896-cı ildə “Qız məktəbi”ni təsis etmiş, qızların məktəbə cəlb olunması üçün maarifləndirmə işləri aparmış, öz istəyinə nail ola bilmişdir. Məhəmməd Tağı Sidqi təkcə məktəbdar maarif xadimi kimi deyil, həm də maarifçi şair və yazıçı kimi də böyük şöhrət qazanmışdır. Sidqinin yaradıcılığında maarifçi düşüncə daim aparıcı istiqamət kəsb etmiş, o, məktəbə nur, işıq mənbəyi kimi baxmış, əsl səadəti məktəbdə, xalqın təhsillənməsində axtarmışdır. Sidqi pedaqoji görüşlərində məktəbi “cəhalət dərdinin dərmanı”, müəllimi isə “cəhalət bağının bağbanı” kimi dəyərləndirərək demişdir: “Məktəb nədir? Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ki, onun kilidi məktəbdir. Bizi nadanlıq zülmətindən qurtarıb mərifət nuruna yetirən məktəbdir... Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır”.

Şagirdlərin müsbət əxlaqi keyfiyyətlərə və vərdişlərə yiyələnməsi Sidqini daim düşündürmüş, şagirdlər üçün imla mətnlərindən ibarət “Əxlaq nümunələri” adlı dərslik tərtib etmişdir. Sidqinin müəllifi olduğu “Müxtəsər coğrafiya risaləsi” Azərbaycanda ilk coğrafiya dərsliyidir. Onun coğrafi məlumatları toplayıb sistemləşdirməsi və müstəqil bir dərslikdə əks etdirməsi o dövr üçün mütərəqqi elmi hadisə idi. Məhəmməd Tağı Sidqi bir pedaqoq kimi nəsihətlərində tərbiyəvi məqamları aşılayır, gəncləri düzlüyə, etibarlılığa səsləyirdi. Bu baxımdan onun “Nəsihətnamə” və “Hikmətli sözlər” əsərləri maraqlı nəsr nümunələri kimi diqqəti cəlb edir.

“Məktəbə və elmə rəğbət, müəllimə hörmət, yeni nəslin tərbiyəsi, insanı və cəmiyyəti dərk etməyə çağırış maarifçi yazıçının əsərlərində qabarıq şəkildə ifadə olunur. Sidqinin qələmindən çıxmış uşaq ədəbiyyatı nümunələrində maarifçi ideyalar öz əksini tapmışdır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, onun uşaqlar üçün hekayələri, əsasən, “Əxlaq nümunələri” və “Qızlara hədiyyə” dərsliklərində toplanmışdır. “Əxlaq nümunələri” dərsliyindəki hekayələr müəllifin maarifçi baxışlarını əsaslandıran, “Qızlara hədiyyə” dərsliyindəki hekayələr isə əxlaqi, tərbiyəvi mahiyyət daşıyan əsərlərdir. Bu əsərlər Azərbaycan milli uşaq nəsrinin ilk bitkin nümunələri kimi mühüm əhəmiyyət kəsb edir. Məhəmməd Tağı Sidqinin şair kimi də ədəbiyyatımızda özünəməxsus yeri vardır. Onun şeirlərində dövrün ən aktual maarifçi ideyaları öz əksini tapmışdır. Xüsusən, qızların maariflənməsinə həsr etdiyi şeirlər öz dövrünə görə mütərəqqi əhəmiyyətə malikdir. Sidqinin “Elmin şərafəti” şeiri Azərbaycan ədəbiyyatında məktəbli qızlara həsr olunmuş ilk maarifçi poetik öyüdnamədir.

Ali Məclisin Sədri demişdir: “Millət dərdi, Vətən və xalq taleyi, elm və maarif problemi Məhəmməd Tağı Sidqinin maarifçi-realist üslubda qələmə aldığı qəzəllərində də əsas və aparıcı mövzulardır. Şairin qəzəllərinin ümumi ruhundan müəyyən etmək mümkündür ki, o, gənclik illərində qədim Şərq fəlsəfəsini mütaliə etmiş, görkəmli şəxsiyyətlərin ədəbi irsini mənimsəmiş və özünün bədii yaradıcılığında həmin mənbələrdən bəhrələnmişdir. Məhəmməd Tağı Sidqi bir ziyalı kimi ədəbi dilin saflığı, sadələşməsi uğrunda da mübarizə aparırdı. Maarifçi ədib ana dilini lüzumsuz, qəliz sözlərlə ağırlaşdıranları tənqid edir, ziyalıları, bir sözlə, qələm sahiblərini doğma dilin saflığını qorumağa çağırırdı.

Naxçıvan teatrının yaradılmasında və inkişafında da Məhəmməd Tağı Sidqinin mühüm xidmətləri olmuşdur. O, 1894-1899-cu illərdə “Dram Cəmiyyəti” üzvləri ilə birlikdə Mirzə Fətəli Axundovun bir neçə komediyasının Naxçıvanda tamaşaya qoyulmasına nail olmuş, həm tamaşaların rejissoru, həm də aktyoru kimi çıxış etmişdir. Böyük pedaqoq və maarifçi bu yolla milli teatrın imkanlarını xalqın maariflənməsinə, ictimai-mədəni tərəqqiyə cəlb etməyi bacarmışdır. Məhəmməd Tağı Sidqinin yaradıcılığında publisistikanın da özünəməxsus yeri vardır. Onun Azərbaycan və Yaxın Şərq mətbuatındakı ədəbi-maarifçi və publisist fəaliyyəti göstərir ki, maarifpərvər ziyalı özünün bütün yaradıcılığı boyu mütəmadi olaraq milli-demokratik mövqedən çıxış etmiş, Vətən və millətin azadlığı yolunda yorulmadan çalışmışdır. Sidqinin bu sahədəki fəaliyyəti Azərbaycan maarifçi-realist ədəbiyyatının və bədii publisistikanın formalaşmasına əvəzsiz töhfələr vermişdir”.

Qeyd olunmuşdur ki, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin Azərbaycan təhsili, ədəbiyyat, teatr və

Ardı 2-ci səhifədə

mətbuatı sahəsindəki mühüm xidmətləri nəzərə alınaraq 2004-cü ildə 150 illik yubileyi geniş qeyd olunmuş, təhsil və mədəniyyət müəssisələrində həyat və fəaliyyətinə həsr olunmuş sərgi və guşələr yaradılmış, oxucu konfransları keçirilmişdir. Naxçıvan şəhərində Məhəmməd Tağı Sidqinin adını daşıyan küçə və məzarı abadlaşdırılmış, Naxçıvan Dövlət Kukla Teatrına Məhəmməd Tağı Sidqinın adı verilmiş, "Naxçıvan" jurnalının bir nömrəsi görkəmli pedaqoqun həyat və fəaliyyətinə həsr olunmuş, seçilmiş əsərləri çap edilmişdir. Ordubad şəhərində 1 nömrəli, Naxçıvan şəhərində isə 4 nömrəli tam orta məktəblər görkəmli pedaqoqun adını daşıyır. Bu il Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi geniş şəkildə qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən, muxtar respublikanın təhsil və mədəniyyət müəssisələrində maarifçi-şairin həyat və yaradıcılığını əks etdirən guşələr yaradılmış, tədbirlər keçirilmişdir. Bundan əlavə, "Naxçıvan" jurnalının bir nömrəsi Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinə həsr olunmuşdur. Məhəmməd Tağı Sidqinin həyatının və yaradıcılığının öyrənilməsi və təbliği məqsədilə görkəmli pedaqoqun doğulub boya-başa çatdığı Ordubad şəhərində ev-muzeyinin yaradılması qərara alınmışdır.

Ali Məclisin Sədri demişdir: "Azərbaycan xalqı maarifpərvər ziyalısını unutmur. Onun xidmətləri öz dövründə olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlamaqdadır. Məhəmməd Tağı Sidqi kimi işıqlı şəxsiyyətlər həmişə xatırlanacaq, xalqımızın yaddaşında daim yaşayacaqdır".

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli Ali Məclis Sədrinin "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında" 20 avqust 2014-cü il tarixli və "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" 17 sentyabr 2014-cü il tarixli sərəncamlarının görkəmli pedaqoqun yaradıcılığına, onun pedaqoji fəaliyyətinə verilən qiymət kimi yüksək dəyərə malik olduğunu bildirərək demişdir: "Məhəmməd Tağı Sidqinin pedaqoji fəaliyyəti, təlim üsulları, tədris, təlim və tərbiyə haqqındakı fikirləri böyük bir təcrübə məktəbidir. Sidqi bütün qüvvəsini uşaqlara hərtərəfli bilik verməyə sərf etmiş, məktəb üçün ayrıca tədris planı, dərs cədvəli, maliyyə planı, şagirdlər üçün ədəb qaydaları hazırlamış, şagirdlərə hərtərəfli dünyəvi biliklərin verilməsinə çalışmışdır. Məhəmməd Tağı Sidqinin pedaqoji irsi bu gün də müasirdir. Naxçıvan Müəllimlər İnstitutunda gənc müəllim kadrları hazırlanarkən görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin pedaqoji fəaliyyətindən, təlim üsullarından, tədris, təlim və tərbiyə haqqındakı fikirlərindən geniş istifadə olunur. Ordubad şəhərində yaradılacaq ev-muzeyi də görkəmli maarifçinin pedaqoji fəaliyyətinin öyrənilməsi və təbliğində mühüm rol oynayacaqdır". Oruc Həsənli Məhəmməd Tağı Sidqi şəxsiyyətinə və yaradıcılığına göstərdiyi diqqətə görə muxtar respublika pedaqoqları və ziyalıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalov bildirmişdir ki, Məhəmməd Tağı Sidqi bu gün də öz tərbiyəvi-didaktik əhəmiyyətini itirməyən, mükəmməl elmi-pedaqoji dəyərə malik olan "Əxlaq nümunələri", "Pedaqogika", "Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" kimi dərsliklərin müəllifidir. Azərbaycan məktəb və pedaqoji fikir tarixində pedaqogika dərsliyinin tərtibinə ilk təşəbbüs göstərən də məhz Məhəmməd Tağı Sidqi olmuşdur. Ona görə də görkəmli maarifçinin yaradıcılığı və pedaqoji fəaliyyəti ilə bağlı məsələlər bu gün də gənclərin təhsillənməsi, tərbiyələnməsi və psixoloji inkişafında böyük əhəmiyyətə malikdir. Maarifçilik ideyalarının həm elmi, həm təcrübi sahədə inkişafına təməl olan Sidqi yaradıcılığı gənclərimizin dünyagörüşünün formalaşmasına təsir göstərən əsərlər məcmusu kimi öz dəyərini daim qoruyub saxlayacaqdır.

Yubiley tədbirində Sidqi irsinin tədqiqatçısı, filologiya üzrə elmlər doktoru Əsgər Qədimov Naxçıvanın tarixən elm və mədəniyyət mərkəzi olduğunu diqqətə çatdıraraq demişdir ki, bu torpağın yetirmələrindən biri də görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqidir. XIX əsr Azərbaycan məktəb, pedaqoji və ədəbi fikir tarixinin görkəmli nümayəndələrindən olan Məhəmməd Tağı Sidqi bütün həyatı boyu maarif və mədəniyyət carçısı olmuş, yorulmadan, fədakarcasına xalqı elmə, tərəqqiyə çağırmışdır. Görkəmli pedaqoq maarif və mədəniyyətimizə, dilimizin saflığına, qızların təhsilinə dair, habelə yeni – latın əlifbasına keçidlə bağlı dəyərli əsərlər, publisistik məqalələr yazmış, Naxçıvan qəzasında ilk dəfə olaraq qız məktəbi açmışdır. O, "Əncüməni-şüəra" ədəbi məclisinə rəhbərlik etmiş, Sədi, Hafiz, Xəyyam, Cami, Nəvai, Nizami və Füzuli kimi klassik Şərq şairlərinin əsərlərinə nəzirə və bənzətmələr yazmış, klassik Azərbaycan və Şərq şairlərinin ədəbi ənənələrini poeziyada davam etdirmişdir. Bu ənənələr sonralar Sidqinin lirikasında maarifçilik ünsürləri ilə əvəz olunmuşdur. Şairin maarifçi-realist üslubda yazılmış bir sıra qəzəllərində millət dərdi, Vətən və xalq taleyi problemi əsas və aparıcı mövzuya çevrilmişdir. Əsgər Qədimov Sidqi şəxsiyyətinə göstərilən diqqət və qayğını mütəfəkkir şəxslərimizin yenidən xalqımıza qaytarılması kimi yüksək mərama xidmət etdiyini bildirmişdir.

Sonra görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illiyinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir. Ədibin əsərlərindən seçmələr, hikmətli və müdrik kəlamları bədii qiraət olunmuş, qəzəlləri əsasında muğamlar ifa olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

***Ulu öndər Heydər ƏLİYEV: SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərirdilər. Aparılan təhlil göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi.***

*(Əvvəli qəzetin ötən sayında)*

Bütün bunlar nəzərdə tutulan tədbirlərin vaxtında yerinə yetirilməsinə əsas vermiş, 70-ci illər ərzində, 80-ci illərin ortalarına qədər respublikanın sənaye istehsalını yüksək artım templəri ilə təmin etmişdi. Bircə faktı qeyd etmək kifayətdir ki, doqquzuncu və onuncu beşilliklər ərzində 1945-ci ildən 1970-ci ilə qədər dövrdəkinə nisbətən daha çox məhsul istehsal olunmuşdu.

On birinci beşillikdə sənaye məhsulunun ümumi həcmi 58,5 milyard rubla çatmışdı, bu isə səkkizinci və doqquzuncu beşilliklərin nəticələrini müvafiq olaraq, təqribən, 3,2 və 2,1 dəfə üstələyirdi. 15 il ərzində sənayenin ümumi məhsul həcmi ümumilikdə götürəndə 1921-ci ildən 1970-ci ilə qədərki bütün dövr ərzində buraxılmış məhsuldan ikiqat çox olmuşdu. Respublika iqtisadiyyatının 70-80-ci illərdə əldə etdiyi uğurların miqyasını əyani surətdə təsəvvür etmək üçün qeyd etməliyik ki, bu göstəricinin hər bir faizi mütləq həcmin artmasına dəlalət edir. Əgər doqquzuncu beşillikdə sənaye məhsulunun bir faiz artmasının qiyməti 45 milyon rubla bərabər tuturdusa, on birinci beşillikdə bu rəqəm, təqribən, 100 milyon rubl edirdi ki, bu da səkkizinci beşilliyin müvafiq göstəricisindən 3,3 dəfə artıq idi. 15 ildə sənayenin əsas fondlarının 69 faizi yeniləşdirilmişdi ki, bu da respublikanın milli varidatının çox mühüm hissəsini təşkil edirdi. Sənaye məhsuldar personalın fondlarla təchizatı 1980-ci ildə 1970-ci illə müqayisədə 10 ildə 1,4 dəfə, on birinci beşillikdə isə daha 1,3 dəfə artmışdı.

Azərbaycan sənayesinin inkişafında müəyyənedici amillərdən biri də elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi olmuşdur. 1971-1985-ci illər ərzində 581 adda yenitipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı; 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmışdı; istehsalın texnoloji proseslərini idarə etmək üçün 94 avtomatlaşdırılmış sistem işə salınmışdı. 1985-ci ildə sənayedə 2519 mexanikləşdirilmiş axın xətti, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, sex və istehsal sahəsi fəaliyyət göstərirdi.

1982-ci ilin əvvəllərində sənayedə 73 elm-istehsal və istehsal birliyi yaradılmışdı ki, bunların da tərkibində 264 iri müəssisə vardı. Real məhsulun ümumi həcmində bunların payı 1969-cu ildəki 0,29 faizdən artaraq 26 faizə çatmışdı. Sənaye inkişafının, ilk növbədə, elmi-texniki tərəqqini müəyyən edən sahələrdə sürətləndirilməsi sənayenin ümumi məhsulunun xüsusi çəkisinin 1970-ci ildəki 22 faizdən 1980-ci ildə 24 faizə, 1985-ci ildə isə 28 faizə çatmasına səbəb olmuşdur.

Sənayenin texniki səviyyəsinin yüksəlməsi müəssisələrin işinin səmərəliliyini artırmağa, keyfiyyəti yaxşılaşdırmağa, hər məhsul vahidinə düşən maddi və əmək məsrəflərini azaltmağa imkan verirdi. Belə ki, 1985-ci ildə 1970-ci illə müqayisədə, ümumən, sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, mənfəət isə 3,2 dəfə yüksəlmişdi. Sənaye məhsullarının ümumi həcmində ən yüksək keyfiyyətli məhsulun xüsusi çəkisi 1980-ci ildə 13 faiz, 1985-ci ildə 17,2 faiz artmışdı (1970-ci ildəki 1,3 faizə qarşı); attestasiya edilmiş məhsulun ümumi həcmində bu göstərici 1980-ci ildə 30 faizə, 1985-ci ildə isə 46 faizə qədər qalxmışdı. Respublika müəssisələri tərəfindən buraxılan 451 adda məhsula dövlət keyfiyyət nişanı verilmişdi.

1970-1985-ci illər ərzində 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdi, bunların da üçdə ikisi öz əmək fəaliyyətinə doqquzuncu, onuncu beşilliklərdə, həmçinin on birinci beşilliyin ilk iki ilində başlamışdı.

Bu illər ərzində Azərbaycanın paytaxtının görkəmi tamamilə dəyişmişdi. Burada müasir memarlıq üslubunda inşa edilmiş çoxsaylı binalar, mədəniyyət obyektləri, İmadəddin Nəsimiyə, Cəfər Cabbarlıya abidələr ucaldılmışdı. 14 ildə yaşayış evləri tikintisinin həcmi ağlagəlməz dərəcədə artmışdı, belə ki, bu dövrdə tikilmiş yaşayış binaları bütün Bakı şəhərinin yaşayış fonduna bərabər tutula bilərdi. Elə hesab edin ki, respublikada yeni bir Bakı salınmışdı.

Bu rəqəmlərin arxasında Azərbaycan xalqının gərgin əməyi və misligörünməmiş səyləri durur. Tarixi baxımdan qısa bir dövrdə Azərbaycan öz iqtisadiyyatını sürətlə inkişaf etdirərək yüzlərlə iri zavod, fabrik, istehsalat sahələri yaratmışdı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Bu illər ərzində milli gəlirin ümumi həcmi 2,5 dəfə artmışdı. Respublikada sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı isə üç dəfə artmışdı. Bu 14 ildə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəlki 50 ildəkinə bərabər idi. Kənd təsərrüfatında məcmu məhsul da 2,7 dəfə artmış, bu sahədə məhsuldarlıq, o cümlədən əmək məhsuldarlığı iki dəfədən artıq çoxalmışdı.

Həmin illər ərzində xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait cəlb olunmuşdu ki, bu da əvvəlki əlli illə müqayisədə 1,5 dəfədən də artıq idi. 250-dən çox iri zavod, fabrik və istehsal sexləri tikilmişdi. İki milyondan çox adam öz yaşayış şəraitini yaxşılaşdırmışdı.

Ancaq bu rəqəmlər, bu cansız göstəricilər nə qədər cəlbedici olsa da, Azərbaycan iqtisadiyyatında baş vermiş struktur, keyfiyyət dəyişiklikləri haqqında tam təəssürat doğura bilməz. Bu illərdə Azərbaycan üçün yeni olan bir neçə xalq təsərrüfatı sahəsinin əsası qoyulmuşdu.

Həmin dövrdə Azərbaycanda hər gün 41 min ton neft, 37 milyon kubmetr qaz çıxarılır, 2200 ton polad tökülür, 69 min metr boru, 4900 avtomobil təkəri, 2700 ton mineral gübrə, 968 məişət kondisioneri, 734 soyuducu istehsal olunur, 546 min metr parça toxunurdu.

Elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqların istehsalı kimi yeni mütərəqqi sənaye sahələri Azərbaycana məhz həmin illərdə "ayaq açmışdı". Bakı Məişət Kondisionerləri Zavodunun fəaliyyətə başlaması respublikada elektrotexnika kimi perspektivli bir sahənin inkişafına təkan vermiş, qısa müddətdə irəliləyiş əldə olunmuş, istehsalın həcmi bir yarım dəfə artırılmışdı.

Azərbaycanın qədim neft emalı sənayesi tarixində ilk dəfə bu dövrdə Bakı neft emalı müəssisələrinin irimiqyaslı yenidən qurulması həyata keçirilmiş, neftin ikiqat emalı üçün qurğu və avadanlıq quraşdırılmışdı.

Bu illərdə yüksək peşəkar səviyyəli kadrların hazırlığına da ciddi fikir verilirdi. Respublikanın ali məktəblər şəbəkəsi əhəmiyyətli dərəcədə genişləndirilmiş, ildırım sürəti ilə inkişaf edən iqtisadiyyatın tələblərinə uyğun bir tərzdə onların strukturu və maddi-texniki bazası da təkmilləşdirilmişdi.

70-ci illərdə Azərbaycanın elektrik enerjisi ilə təmin olunması üçün çox səylər göstərilmişdi. Bu gün iftixar hissi ilə demək olar ki, bu mühüm sahədə respublikamız heç bir ölkədən asılı olmayan geniş elektrik enerjisi müəssisələri sisteminin yaradılmasına nail olmuşdu. Energetika sahəsində Azərbaycanda görülən işlər sayəsində beş min meqavatt elektrik enerjisi istehsal gücünə malik energetika sistemi yaradılmışdır. Biz o dövrdə ittifaq hökumətindən böyük vəsaitlər alıb Mingəçevirdə hər birinin gücü üç yüz meqavatt olan 8 böyük enerji bloku yaratdıq. Kür Su Elektrik Stansiyası inşa edildi. Yenikənd Su Elektrik Stansiyasının tikilməsi üçün 1979-cu ildə qərar qəbul olundu, lakin məlum səbəblərə görə sonrakı illərdə bu iş yarımçıq qaldı. Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra imkan tapıb yenidən bu məsələyə qayıtdıq və 1994-cü ildə Avropa Yenidənqurma və İnkişaf Bankından güzəştli kredit alıb Yenikənd Su Elektrik Stansiyasının tikintisini davam etdirdik.

Həyatımızın bütün sahələrində belə əsaslı dönüş yaratmaq üçün, ilk növbədə, yüksək ixtisaslı kadrlara ehtiyac duyulurdu. Azərbaycanın daxilində hazırlanan ali təhsilli mütəxəssislərlə yanaşı, bu ehtiyacı ödəmək üçün Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmişdi. Hər il ali təhsil almaqdan ötrü respublikadan kənara 800-dən artıq tələbə göndərilməsi artıq yaxşı bir ənənə şəklini almışdı. Gənc və yeniyetmə azərbaycanlı oğlanların ali hərbi məktəblərə cəlb olunması işinə xüsusi diqqət yetirilirdi. Bütün bunlar Azərbaycanın gələcək inkişafı üçün qüdrətli kadr potensialının formalaşmasına böyük təsir göstərmişdir.

SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərirdilər. Aparılan təhlil göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi. Bizim bəzi alimlərimiz sübut etməyə çalışırdılar ki, guya SSRİ-siz Azərbaycan bir gün də dolana bilməz. Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdı.

1920-1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın yaranmasının bünövrəsi XIX əsrdə qoyulsa da, məhz bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı təmin olunmuş, onlarca teatr açılmış, kino sənəti inkişaf etmiş, minlərlə qəzet və jurnal çap olunmağa başlamışdı.

Təəssüflər olsun ki, həmin dövrdə yaradılmış o böyük potensial hərcmərclik illərində dağıntılara məruz qaldı. Azərbaycanın düçar olduğu Dağlıq Qarabağ faciəsi vəziyyəti daha da ağırlaşdırdı.

*(Ardı qəzetin növbəti sayında)*

## Naxçıvanın qorunması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır



*Dünən AMEA Naxçıvan Bölməsində "Heydər Əliyev lektoriyası"nın 63-cü məşğələsi keçirilib. Tədbiri bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli açıb.*

Sonra AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Heydər Əliyev və Naxçıvan" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin ilk dövrü Naxçıvandan başlasa da, onun siyasi fəaliyyəti daha çox Bakı və Moskva ilə bağlı olub. Lakin bu zirvələrə aparan yol Naxçıvandan başlayıb, bu böyük Azərbaycanlı həyatının ilk illərini burada keçirib, ilk təhsilini Naxçıvanda alıb. Ümummilli lider Heydər Əliyev özü bu torpağın qeyri-adiliyindən, əsrarəngiz təbiətindən, dağlarından, insanlarından, kəskin kontinental iqlimindən dəfələrlə bəhs edib və həyatında Naxçıvanın önəmli rol oynadığını xatırlayıb. Qeyd olunub ki, 1969-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycanda rəhbər vəzifəyə seçilməsi ölkəmizdə çox mühüm dəyişikliklərə səbəb oldu. Ölkəmizin hərtərəfli inkişafına böyük əhəmiyyət verən dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın bütün bölgələrinə, o cümlədən Naxçıvan Muxtar Respublikasına son dərəcə həssaslıqla, diqqət və qayğıyla yanaşır, bütün sahələrdə ciddi, davamlı dirçəlişə, kompleks inkişafa nail olurdu. İndi Naxçıvan Muxtar Respublikasının hər bir bölgəsində, hər bir guşəsində o dövrün nişanələrinə rast gəlmək olar. Həmin illərdə Naxçıvana dönə-dönə səfərlər edən, bir sıra yubiley tədbirlərində iştirak edən ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının, onun rayonlarının, qəsəbə və kəndlərinin abadlaşdırılması, yeni infrastrukturların yaradılması, bir sözlə, Naxçıvanın hərtərəfli inkişafı üçün icra orqanlarına lazımi tapşırıqlar verirdi.

Ulu öndər Heydər Əliyevin Naxçıvanla bağlı fəaliyyətinin ikinci dövrünün ötən əsrin 90-cı illərinə təsadüf etdiyini qeyd edən məruzəçi xatırladıb ki, ən yeni tariximizin həmin çətin dövrlərində böyük şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi muxtar respublikanı, ümumilikdə isə ölkəmizi bəlalardan xilas etdi. 1990-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində muxtar respublikada Azərbaycanın milli dövlətçilik atributları bərpa olundu, ölkəmizin müstəqilliyinin qorunub saxlanılması üçün mühüm tarixi addımlar atıldı. Dövlət strukturlarının möhkəmləndirilməsi, habelə hüquqi dövlət quruculuğu və bazar iqtisadiyyatına keçidlə əlaqədar yeni struktur bölmə və təşkilatların yaradılması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müdrik siyasətçinin fəaliyyətinin Naxçıvan dövrü, eləcə də 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı müstəqil Azərbaycanın inkişafında yeni bir mərhələnin başlanğıcı oldu. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin siyasi kursu bu gün ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Məhz bu siyasi kursun uğurla davamının nəticəsidir ki, muxtar respublikamız özünün intibah dövrünü yaşayır.

Sonra məruzə ətrafında çıxışlar olub.

*Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasi irsinin şagirdlərə öyrədilməsi diqqət mərkəzində saxlanılır. Keçirilən tədbirlərdə ulu öndərin Azərbaycan xalqı üçün həyata keçirdiyi cahanşümul tədbirlər, ümummilli liderin hər bir azərbaycanlı üçün örnək olan həyat və siyasi fəaliyyəti şagirdlərimizə aşılanır.*

## Ürəklərdə yaşayan dahi

### Ümumtəhsil məktəblərində bu mövzuda inşalar yazılıb



Dünən muxtar respublikanın ümumtəhsil məktəblərində "Ürəklərdə yaşayan dahi" mövzusunda inşalar yazılıb. Yazılarda məktəblilər ulu öndər haqqında öz fikir və düşüncələrini səmimi hisslərlə, həm də bu dahi şəxsiyyətə dərin hörmət, sonsuz ehtiram duyğuları ilə ifadə ediblər. İnşalarda bu fikir ifadə olunub ki, Vətəni, milləti sevməyin, ona fədakar xidmət etməyin nümunəsi məhz ümummilli liderimizdir. Ulu öndər bütün həyatı və fəaliyyəti boyu xalqını özünə arxa sayıb, özü də xalqa dayaq olub.

Heydər Əliyev adına tam orta məktəbin X sinif şagirdi Gülnur Mirzəyevanın inşasında oxuyuruq: "Xalqımızın ümummilli lideri Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Ulu öndərimiz Heydər Əliyev eyni zamanda taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz ulu öndərimiz yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş dahi şəxsiyyət Heydər Əliyevin zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, ulu öndərimizin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır. Heydər Əliyev siyasəti xalqımıza daha xoş və xoşbəxt günlər gətirəcəkdir".

**Xəbərlər şöbəsi**

*Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişaf mərhələsinin əsası ötən əsrin 70-ci illərində qoyulmuşdur. Bu dövrdən başlayaraq ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində rabitə sahəsinin inkişafına hesablanmış mühüm tədbirlər həyata keçirilmişdir. Ulu öndərin diqqət və qayğısı nəticəsində rabitənin inkişafı üzrə bir sıra qərarlar qəbul edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasında, ali təhsil müəssisələrində elektronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alim və təcrübəli mütəxəssislər yetişdirilmiş, elektron avadanlıqlar istehsal edən zavodlar tikilərək istifadəyə verilmiş, elmi-tədqiqat müəssisələri yaradılmışdır.*

## Muxtar respublikada rabitə və yeni texnologiyaların inkişafı diqqət mərkəzindədir

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövründə də rabitə sahəsi yeni inkişaf mərhələsinə qədəm qoymuş, 2003-cü ildə ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunması və inkişaf etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" təsdiq edilmişdir. Milli strategiyanın qəbulundan ötən müddət ərzində rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlər həyata keçirilmiş, bu sahənin qanunvericilik bazası gücləndirilmiş, beynəlxalq əlaqələri genişləndirilmişdir.

Bu gün rabitə və yeni texnologiyaların inkişafını prioritet məsələlərdən biri kimi diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sahəsində məqsədyönlü tədbirlər görülür. Son illər həyata keçirilən dövlət proqramları və zəruri islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlər öz həllini tapmışdır. 2013-cü ilin ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olunması sektorun uğurlarını daha da artırmış, həmin il fevral ayının 8-də ölkəmizin ilk milli telekommunikasiya peyki orbitə göndərilmişdir. Bununla da, Azərbaycan dünya kosmik ailəsinin fəal üzvlərindən birinə çevrilmiş və kosmik sənayenin inkişafı istiqamətində uğurlu işlərə imza atılmışdır.

Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da bu sahəyə daim diqqət və qayğı ilə yanaşılır, iqtisadiyyatın bütün sahələrində yeni texnologiyaların tətbiqi sürətləndirilir. Muxtar respublikada rabitə və informasiya sistemlərinin, informasiya-kommunikasiya texnologiyalarının inkişafını təmin etmək məqsədilə reallaşdırılmış məqsədyönlü tədbirlər hazırkı sosial-iqtisadi inkişafda bu sahənin rolunu artırmaqdadır. Yeni optik kabel magistrallarının tikintisi iritutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsinə imkan verir. Belə ki, ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, Naxçıvanın ilk dəfə tranzit telekommunikasiya imkanları yaradılmışdır. Magistralın Naxçıvan-Ordubad, Naxçıvan-Sədərək və Naxçıvan-Şahbuz hissələri üzərində qurulan optik rəqəmsal şəbəkələr elektron hökumət və genişzolaqlı xidmətlərin həyata keçirilməsinə mühüm şərait yaratmışdır. Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilmişdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Bununla yanaşı, daxili telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi məqsədilə 2013-cü ilin mart ayından etibarən 242 km uzunluğunda Ordubad-Sədərək fiber-optik magistralının tikintisinə başlanılmış və bu il başa çatdırılmışdır.

Muxtar respublikada əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə konkret vəzifələr müəyyənləşdirilmiş, bu sahədə mühüm irəliləyişlər əldə olunmuşdur. Rabitə sektoruna investisiyaların cəlb edilməsi nəticəsində istismarda olan koordinattipli ATS-lər müasir tələblərə cavab verən elektrontipli ATS-lərlə əvəz olunmuşdur. Nəticədə, ən ucqar dağ kəndində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir.

Ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya sisteminin yenilənməsi diqqət mərkəzində saxlanılmış, nəzərdə tutulan 4 mərhələnin 3-ü artıq başa çatdırılmışdır. 2010-cu ildə Naxçıvan şəhərini, Babək qəsəbəsini, Nehrəm və Yarımca kəndlərini, 2012-ci ildə Şərur və Sədərək rayonlarını, 2014-cü il fevral ayının 11-də isə Şahbuz və Babək rayonlarını əhatə edən 3-cü nəsil telekommunikasiya xidmətlərindən istifadəyə imkan verən avadanlıqlar istifadəyə verilmişdir. Hazırda istifadə olunan avtomat telefon stansiyalarının 80-i yeni nəsil texnologiyalara əsaslanır. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, muxtar respublikaya daxil olan internetin sürəti artırılmış, ümumtəhsil məktəblərində quraşdırılan kompüterlərin 84 faizi internetə qoşulmuş, internet xidmətlərinin tarifləri aşağı salınmışdır. Muxtar respublikaya daxil olan internet kanalının sürəti 512 kb/san-dən 10 gb/san-dək artırılmışdır. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 92 faizində genişzolaqlı internet, 93 faizində isə simsiz internet xidmətləri göstərilir.

2004-cü ildən etibarən muxtar respublikada 120 poçt bölməsi, 121 avtomat telefon stansiyası yeni binaya köçürülmüşdür. Poçt bölmələrindən 75-i yeni fəaliyyətə başlamış, avtomat telefon stansiyalarından isə 95-i yeni istifadəyə verilmişdir. Son 10 il ərzində informasiya-kommunikasiya texnologiyaları sahəsində yeni obyektlərin istifadəyə verilməsi ilə 209 iş yeri açılmışdır.

Naxçıvan Muxtar Respublikasında informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülür. Bu gün informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə xüsusi diqqət yetirilir. "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası məqsədilə dövlət orqanlarının göstərəcəyi elektron xidmətlərin reqlamentləri təsdiq edilmiş, reyestr kodları verilmiş və internet saytlarında yerləşdirilmişdir. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 82 dövlət orqanına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, 34 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir. "Elektron hökumət" portalı üzərindən real vaxt rejimində rabitə xidmətləri və genişzolaqlı internet xidməti haqlarının ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda onlayn qeydiyyatdan keçməsi üçün müvafiq tədbirlər görülmüşdür.

Muxtar respublikada diqqət mərkəzində saxlanılan məsələlərdən biri də keyfiyyətli televiziya yayımının təşkilindən ibarətdir. Artıq 2012-ci ilin mart ayından etibarən muxtar respublikada rəqəmsal televiziyanın yayımına başlanılmışdır. Hazırda yaşayış ərazilərinin 100 faizində rəqəmsal yayım təşkil edilmişdir. Bundan əlavə, muxtar respublika ərazisində IP televiziyanın yayımı təşkil edilərək sakinlərə yeni nəsil telekommunikasiya sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaradılmışdır.

Naxçıvanda həyata keçirilən "Məliyyə xidmətlərinin inkişafı" layihəsi müasir informasiya texnologiyalarının tətbiqinə, poçt sisteminin yenidən qurulmasına, qeyri-ənənəvi və yenitipli elektron xidmətlərin göstərilməsinə şərait yaratmışdır. Layihəyə uyğun olaraq, muxtar respublikada 105 poçt şöbə və bölməsi avtomatlaşdırılmış, yeni sistem üçün server qurulmuş, lazımi proqram təminatı ilə təchiz edilmişdir. Ötən ildən muxtar respublikada kommunal xidmət haqlarının poçt məntəqələrində yığılmasına başlanılmışdır. Bundan əlavə, şəhər, rayon poçt şöbə və bölmələrində kommunal xidmət haqlarının plastik kartlar vasitəsilə ödənişi üçün POS-terminal avadanlıqları qoyulmuşdur.

Bu ilin əvvəlindən muxtar respublikada "Elektron imza"nın tətbiqinə də başlanılmışdır. Bunun üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında Elektron İmzanın Sertifikat Mərkəzi yaradılmış, lazımi texniki avadanlıqlarla təmin edilmişdir. Dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin aparılması məqsədilə fiber-optik telekommunikasiya şəbəkəsi genişləndirilmiş, elektron xidmət göstərəcək dövlət orqanlarına fiber-optik kabel xətləri çəkilmişdir. Hazırda muxtar respublika üzrə fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1000 kilometrdən artıqdır.

Yeni texnologiyaların tətbiqi təhsil sistemində müasir metodlardan istifadəyə də zəmin yaratmışdır. Xüsusilə də sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması istiqamətində bu imkanlardan geniş istifadə olunur. Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzində görmə qabiliyyəti məhdud olanlar üçün audiokitabxana, eşitmə məhdudiyyəti olanlar üçün elektron kitabxanalar yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmışdır. Bu da müvafiq kateqoriyadan olan gənclərin təhsilə cəlbində mühüm əhəmiyyətə malik olmuşdur. Muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün məktəbə və muzeylərə optik kabel xətləri çəkilmiş, server qoyulmuş, lazımi proqram təminatı və infrastruktur qurulmuşdur. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin internet saytında "E-təhsil" bölməsi yaradılmışdır. 2014-cü il sentyabr ayının 15-dən etibarən ümumtəhsil məktəbləri və muzeylərin iştirakı ilə müştərək distant dərslərin keçirilməsinə başlanmışdır.

*Peşə bayramlarını qeyd edən muxtar respublikanın rabitə və yeni texnologiyalar sahəsi işçiləri bundan sonra da qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcək, əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi istiqamətində səylə çalışacaqlar.*

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2014

**23 dekabr 2014-cü il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər!**

Vətəndaşların və siyasi partiyaların qanunun yol verdiyi formalarda və üsullarla seçiciləri seçkilərdə iştirak etməyə və ya etməməyə, namizədin, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun lehinə və ya əleyhinə səs verməyə çağırışlar formasında seçkiqabağı təşviqat aparmaq hüququ vardır.

Seçkiqabağı təşviqat vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştiraka, bu və ya digər namizədlərin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyətdir.

Bələdiyyə seçkilərində seçkiqabağı təşviqat Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə uyğun aparılır. Seçkiqabağı təşviqat aparmaq hüququna aşağıdakılar malikdirlər:

- bələdiyyə seçkilərində iştirak etmək üçün qeydə alınmış namizədlər;
- bələdiyyə seçkilərində iştirak etmək üçün namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyalar blokları.

**Seçkiqabağı təşviqat aşağıdakı üsullarla aparıla bilər:**

- kütləvi informasiya vasitələri ilə;
- kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və sair) keçirilməsi yolu ilə;
- çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;
- qanunla qadağan edilməyən digər üsullarla.

Kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqat açıq müzakirələr, dəyirmi masalar, mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, tele və radioverilişlər, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku seçkiqabağı təşviqatın forma və üsullarını müstəqil müəyyənləşdirir.

**Seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması aşağıdakılara qadağan edilir:**

- *xarici dövlətlərə və xarici hüquqi şəxslərə;*
- *xarici vətəndaşlara;*
- *vətəndaşlığı olmayan şəxslərə;*
- *18 yaşına çatmamış vətəndaşlara;*
- *seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxsinin nizamnamə kapitalında Seçki Məcəlləsinin 90.2.1, 90.2.2 və 90.2.3-cü maddələrində göstərilən şəxslərin iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə;*
- *beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;*
- *dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;*
- *dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;*
- *seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə;*
- *hərbi hissələrə;*
- *xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;*
- *öz vəzifələrini və ya xidməti vəzifələrini yerinə yetirərkən, həm də vəzifəsindən və ya xidməti üstünlüyündən istifadə etməklə dövlət orqanlarında, idarələrində, təşkilatlarında və ya bələdiyyə orqanlarında və təşkilatlarında vəzifədə olan şəxslərə, dövlət və bələdiyyə qulluqçularına, hərbi qulluqçulara;*
- *seçki komissiyalarına, seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinə və digər vəzifəli şəxslərinə.*

**Seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.**

* * *

**Səsvermə günü və ondan əvvəlki gün hər hansı seçkiqabağı təşviqat aparmaq qadağandır.**

İctimai teleradio təşkilatları və ya dövri nəşrlərin redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olduqda və ya onlar dövlət büdcəsindən maliyyələşdirilərsə, ictimai teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara və siyasi partiyaların bloklarına seçkiqabağı proqramlarını təbliğ etməkdən ötrü dövlət hakimiyyəti orqanlarının ayırdığı vəsait hesabına bərabər şərait yaradırlar. Göstərilən təşkilatlar qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının lehinə və ya əleyhinə öz təşəbbüsləri ilə seçkiqabağı təşviqat apara bilməzlər. Dövlətə məxsus olan teleradio verilişləri təşkilatları vasitəsilə seçkiqabağı təşviqat aparılmır.

Seçki Məcəlləsinin 77.1 və 77.4-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə, namizədi qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına müqavilə əsasında dəyəri ödənilən efir vaxtı və dövri nəşrlərdə yer ayırmaq hüququna malikdirlər.

Ödənişin məbləği və şərtləri müvafiq olaraq qeydə alınmış bütün namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları üçün eyni olmalıdır.

Qeydə alınmış namizədlərə, siyasi partiyalara və siyasi partiyaların bloklarına müvafiq olaraq pulsuz və ya pullu efir vaxtı və ya dövri nəşrlərdə yer ayıran teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada ayrılmış efir vaxtının və ya dövri nəşrlərdə yerin həcminin və dəyərinin qeydiyyatını aparmalı və bu qeydiyyat barədə səsvermə gününə azı 5 gün qalmış və səsvermə günündən ən tezi 5 gün sonra onların qeydiyyatını həyata keçirən seçki komissiyasına məlumat verməlidirlər.

Müvafiq seçki komissiyasının sorğusu əsasında qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları ödənişli efir vaxtının və dövri nəşrdə yerin dəyərinin ödənilməsinə razılığı təsdiq edən sənədləri təqdim etməyə borcludurlar.

Bələdiyyə üzvlüyünə namizədlərin seçkiqabağı təşviqat aparmaq məqsədilə Seçki Məcəlləsinin 77.4-cü maddəsində nəzərdə tutulan teleradio verilişləri təşkilatlarının kanallarında pulsuz efir vaxtı almaq hüququ vardır.

Teleradio verilişləri təşkilatlarının təqdim etdikləri pulsuz efir vaxtı qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları arasında bərabər şərtlərlə və bərabər həcmdə bölünür.

**Televiziya və radioda seçkiqabağı təşviqat materiallarının verilməsinə dair tələblər**

**Qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçkiqabağı təşviqat materiallarının verilməsini malların, işlərin və xidmətlərin reklamları ilə və ya digər proqramların verilməsi ilə dayandırmaq qadağan edilir.**

Qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçkiqabağı təşviqat materiallarının Seçki Məcəlləsinin 77.1-ci maddəsində göstərilən teleradio verilişləri təşkilatlarının kanallarında verilməsini digər teleradio proqramlarının verilməsi ilə dayandırmaq qadağandır.

**Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyə qurumlarının təsis etdikləri dövri nəşrlər təsisçilərin rəsmi materiallarının, məlumatlarının, normativ və digər aktlarının rəsmi dərc edilməsi məqsədi daşıyırsa, onların redaksiyaları seçkiqabağı təşviqat materiallarını və digər materialları dərc edə bilməzlər.**

Dövlət orqanları, bələdiyyə qurumları qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində kömək etməlidirlər.

Qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları qanunla müəyyənləşdirilmiş qaydada çap, audiovizual və digər seçkiqabağı təşviqat materiallarını buraxmaq hüququna malikdirlər.

Seçkilərin təyin edilməsi haqqında qərarın dərc edildiyi günədək təsisçiləri (həmtəsisçiləri) dövlət orqanları və ya bələdiyyə qurumları, təşkilatları və idarələri olan, reklam xidmətləri göstərən təşkilatlar dövlət hakimiyyəti orqanlarının, bələdiyyə qurumlarının ayırdıqları vəsait hesabına müvafiq seçki dairələri üzrə qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiyaların bloklarına seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün bərabər şərait yaratmalıdırlar.

**Seçkiqabağı çap və audiovizual təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumat olmalıdır.**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləsinə uyğun olaraq, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının seçkiqabağı proqramında yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır. Bu qadağa Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə uyğun tətbiq edilməlidir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır.

Azərbaycan Respublikasının Konstitusiyasının 30-cu maddəsinə və Azərbaycan Respublikası Mülki Məcəlləsinə uyğun olaraq, əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqat qadağandır.

**Seçkiqabağı təşviqatda bilavasitə, yaxud dolayısı ilə iştirak edən namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun, onların səlahiyyətli nümayəndələrinin, habelə digər şəxslərin və təşkilatların seçiciləri aşağıdakı üsullarla ələ alması qadağandır:**

- *təşkilati işlərin yerinə yetirilməsi məqsədi istisna olmaqla, seçicilərə pul vəsaiti, hədiyyələr və digər qiymətli materiallar vermək (döş nişanları, yapışqanlı nişanlar, plakatlar və nominal dəyərə malik olan digər təşviqat materialları istisna edilməklə);*
- *göstərilən təşkilati işi yerinə yetirən seçiciləri səsvermənin nəticəsindən asılı olaraq mükafatlandırmaq və ya belə mükafatlandırmanı vəd etmək;*
- *malların güzəştli satışını keçirmək, hər hansı malı (çap materialları istisna olmaqla) pulsuz vermək;*
- *əvəzsiz və ya güzəştli şərtlərlə xidmətlər göstərmək;*
- *seçkiqabağı təşviqat zamanı seçicilərə qiymətli kağızlar, habelə maddi sərvətlər, pul vəsaiti veriləcəyini vəd etmək yolu ilə, habelə qanunvericiliyə zidd olan digər əsaslarla xidmətlər göstərilməsi ilə təsir etmək.*

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası*

## “İstedadlar sorağında” müsabiqəsinə başlanılıb

Dekabrın 5-də Culfa Rayon Mədəniyyət Evində “İstedadlar sorağında” adlı bədii özfəaliyyət kollektivlərinin baxış-müsabiqəsinə start verilib. Baxış-müsabiqənin keçirilməsində məqsəd rayon (şəhər) Mədəniyyət və Turizm şöbələrinin tabeliyində olan klub və mədəniyyət müəssisələrindəki özfəaliyyət kollektivlərində yaradıcı şəxslərin üzə çıxarılması, ənənəvi sənət növlərinin, həmçinin dekorativ-tətbiqi sənət və rəsm sahələrinin inkişaf etdirilməsi, xalq və bəstəkar mahnılarının, milli musiqi alətlərinin, ümumiyyətlə, xalqımızın mədəniyyət və incəsənətinin təbliğ edilməsidir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən baxış-müsabiqə iki turdan ibarət olacaq. Müsabiqənin I turu 5-9 dekabr tarixlərində zonalar üzrə keçiriləcək və qaliblər II turda iştirak edəcəklər. Yaş məhdudiyyəti qoyulmayan müsabiqədə ifa tərzi və səhnə mədəniyyəti kimi meyarlar əsas götürüləcəkdir. Mədəniyyət müsabiqəsində ifaçıların qiymətləndirilməsi məqsədilə münsiflər heyəti yaradılıb.

Culfa Rayon Mədəniyyət Evində keçirilən müsabiqənin ilk günü maraqlı və yaddaqalan olub. Rayon Mədəniyyət Evinin foyesində sərgilənən mis üzərində döymə, tikmə, toxuma, miniatür rəsm və başqa sənət nümunələri tamaşaçıların marağına səbəb olub.

Rayon Mədəniyyət Evində milli musiqi alətlərimiz, xalq mahnı və rəqsləri üzrə ifaların dinlənilməsinə başlanılıb.

Baxış-müsabiqənin sonunda Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsi üzrə iştirak edən kollektivlərin və yaradıcı şəxslərin ifaları və əl işləri münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Fərqlənənlər dekabrın 17-də Naxçıvan şəhərində keçiriləcək yekun turda iştirak etmək hüququ qazanıblar.

**Əli RZAYEV**

## Güləş üzrə rayon birinciliyi

Ordubad rayonunda “Zərərli vərdişlərə “yox” deyək, həmişə sağlam olaq” devizi altında yunan-Roma güləşi üzrə rayon birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Ordubad Rayon Gənclər və İdman İdarəsi ilə Uşaq-gənclər idman məktəbinin birgə təşkil etdiyi birincilikdə 38 güləşçi 8 çəki dərəcəsində qüvvəsini sınayıb. Yarışın yekun nəticələrinə görə, Sezər Ömər (32 kq), Məhərrəm Vəliyev (35 kq), Məğrur Quliyev (38 kq), Behrud Məhərrəmov (42 kq), Nihad Qasımov (50 kq), İsfəndiyar Məhərrəmov (55 kq), İsi Alıyev (60 kq) və Elcan Məmmədli (66 kq) öz çəki dərəcələrindəki bütün rəqiblərini məğlub edərək yarışın qalibi adını qazanıblar.

Sonda təşkilatçılar tərəfindən qalib güləşçilərə diplomlar təqdim olunub.

## Voleybol yarışı



Dünən Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin idman zalında ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş VIII, IX, X və XI sinif şagirdləri arasında voleybol yarışının final görüşü keçirilib. Dekabrın 1-də start verilən voleybol yarışında məktəbin on sinfi mübarizə aparıb və yarış olimpiya sistemi üzrə təşkil edilib. Məktəbin bu turniri keçirməsində əsas məqsəd voleybol idman növünü yeniyetmə və gənc oğlanlar arasında təbliğ etmək, həmçinin istedadlı voleybolçuları üzə çıxarıb Naxçıvan idmanına qazandırmaq olub.

Final görüşündən öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Aygün Hüseynova çıxış edərək bu cür turnirlərin məktəb daxilində mütəmadi olaraq təşkil edildiyini bildirib. Naxçıvan Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev və məktəbin müəllimi Emil Babayev yarış iştirakçılarına yarış haqda məlumat verərək idmançılara uğurlar arzulayıblar.

Həlledici qarşılaşmada məktəbin X və XI sinif şagirdləri üz-üzə gəliblər. Bu görüşdə daha üstün oyun sərgiləyən XI sinif komandası yarışın qalibi adını qazanıb.

Sonda qalib komandanın üzvlərinə diplomlar təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1023